**p-ISSN: 2410-5619**
**e-ISSN: 2663-9998**

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTU**

# ELMİ ƏSƏRLƏR

***Научные труды***
***Scientific publications***

**№2 (7),**
**iyul-dekabr**
**2018**

*27.07.2015-ci idə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən "Mətbu nəşrlərin reyestri"nə (22/9) daxil edilmişdir.*

*Fransada Beynəlxalq İSSN Mərkəzində qeydiyyatadan keçmişdir.*

**BAKI – 2018**

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi Şurasının 18 dekabr 2018-ci il tarixli 8 saylı iclasının qərarı ilə çap olunur.

**Baş redaktor:**

**Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ**
AMEA-nın Məhəmməd.Füzuli adına Əlyazmalar İnstitutunun
elmi işlər üzrə direktor müavini, filologiya üzrə elmlər doktoru

**Redaksiya heyəti:**

**İsa HƏBİBBƏYLİ**
Azərbaycan MEA-nın vitse-prezidenti, akademik

**Teymur KƏRİMLİ**
Azərbaycan MEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik

**Paşa KƏRİMOV**
AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə elmlər doktoru

**Nailə SƏMƏDOVA**
AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Şəxsi arxivlərin tədqiqi şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru

**Gülbəniz BABAXANLI**
AMEA-nın Hüseyn Cavidin Ev Muzeyinin direktoru, filologiya üzrə elmlər doktoru

**Nikolay KALYONOV**
Rusiya EA Təbiət Elmləri Kitabxanası, texnika üzrə elmlər doktoru

**Oleq ŞORİN**
Rusiya EA Təbiət Elmləri Kitabxanasının direktoru, texnika üzrə fəlsəfə doktoru

**Aleksandr QRUŞA**
Belarus Milli EA Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent

**Şirin İBRAİMOVA**
Qırğızıstan EA Mərkəzi Elmi Kitabxanasının direktoru

**Umutkan MUNALBAYEVA**
Qazaxıstan Milli Akademik Kitabxanasının baş direktoru, pedaqogika üzrə elmlər doktoru, professor

**Nadir İSMAYILOV**
BDU-nun "Biblioqrafıyaşünaslıq" kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Firəngiz HUSEYNOVA**
AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elektron resurslar şöbəsinin müdiri (məsul katib)

**Cavid CƏFƏROV**
AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru

**Qutiyera CƏFƏROVA**
AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Kitabxana və elmi informasiya şöbəsinin müdiri

*AR Prezidenti yanında Ali Attestasiya Komissiyası rəyasət heyətinin 31.03.2017-ci il tatixli (Protokol №06-R) qərarı ilə "Azərbaycan Respublikasında dissertasiyaların əsas naticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"na daxil edilmişdir.*

UOT 003.332.5

**Eyvazova K.**
*filologiya üzrə fəlsəfə doktoru,*
*BDU-nun Ərəb filologiyası kafedrası,*
*Bakı ş.,akademik Zahid Xəlilov küçəsi 23.*
*e-mail:eyvazovaki@rambler.ru*

# ƏRƏB YAZISININ MƏNŞƏYİ İLƏ BAĞLI NƏZƏRİYYƏLƏR

**Açar sözlər:** *ərəb yazısı, mənşə, nəzəriyyə, musnəd yazısı, nabati yazısı.*

Dünyanın qədim yazılarından hesab olunan ərəb yazısı özünəməxsus inkişaf yolu keşmişdir. Ərəb yazısının yaranması barədə alimlərin fikirləri müxtəlifdir. Yazı haqqında məşhur kitabın müəllifi Dringer ərəb yazısının yaranması və inkişafı məslələrinə toxunarkən ilk əvvəl qeyd edir ki, ərəb yazısının dəqiq mənşəyi və onun erkən tarixi hələ də qaranlıq qalmaqda davam edir.

اصل الكتابة العربية الدقيق و تاريخها المبكر يبقي غامضا (1,142)

Qeyd edək ki, mənbələrdə ərəb yazısının mənşəyi, inkişafı, tarixi barədə müxtəlif fikirlər mövcuddur. Hazırkı məqalə adından da göründüyü kimi, ərəb yazısının yaranması ilə bağlı fikirlər, rəylər əsasında formalaşan nəzəriyyələrə həsr olunmuşdur. Məqsədimiz ərəb yazısı ilə bağlı ədəbiyyatlara nəzər salaraq mövcud rəyləri, fikirləri qruplaşdırmaq, bu barədə ümumi rəyə gəlməkdir.

Yazı haqqında ədəbiyyatlara nəzər salarkən ərəb yazısının yaranması ilə bağlı alimlərinin bir cox fikir və nəzəriyyələrinin olduğunun şahidi olduq. Əldə etdiyimiz məlumatlara əsasən deyə bilərik ki, ərəb yazısının yaranması, mənşəyi ilə bağlı formalaşan nəzəriyyələri üç qrupa bölmək olar:

Birinci nəzəriyyənin tərəfdarları yazının "İlahi vergi" olmasını iddia edirlər. Yəni, *ərəb yazısı bəşər- insan əlinin məhsulu deyil, Allah tərəfindən nazil olan, insanlara bəxş edilən ilahi bir vergidir*. Ərəb yazısının yaranması, mənşəyi, tarixi ilə bağlı nəzər saldığımız əsərlərdə ilk olaraq bu fikirlərlə rastlaşırıq. (2, 13; 3, 8)

Onu Allah Subhanə və Təalə Adəmə (ə.s.) öyrətmişdir.

**"وَعَلَّمَ آدَمَ الْأَسْمَاءَ كُلَّهَا ثُمَّ عَرَضَهُمْ عَلَى الْمَلَائِكَةِ (4,6)**

Allah Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları mələklərə göstərdi.(5, 4)

**اقْرَأْ وَ رَبُّكَ الْأَكْرَمْ**
**الَّذِي عَلَّمَ بِالْقَلَمِ**
**عَلَّمَ الْإِنْسَانَ مَا لَمْ يَعْلَمْ. (4,597)**

(Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir!
O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi.
(O Rəbbin ki,) insana bilmədiklərini öyrətdi. (5, 471)

XIII əsrin görkəmli ensiklopedist alimi Əbu Abbas Əhməd əl-Qalqaşandinin yazı sənəti haqqında yazdığı "Subh əl-Aşə " əsərində deyilir:

قيل: إن أوّل من وضع الخطوط والكتب كلها آدم عليه السلام: كتبها في طين وطبخه؛ وذلك قبل موته بثلاثمائة سنة، فلما أظلّ الأرض الغرق أصاب كلّ قوم كتابهم. **(3,4)**

"Bütün yazıların və xəttlərin əsasını ölümündən 300 il əvvəl Adəm (ə.s) qoymuşdur. O, yazını palçıq üzərində yazmış, sonra bişirmişdir. Yer üzünü su basanda hər bir xalq öz yazısını əldə etmişdir".

Əl-Suyuti "Əl-itqan fi ulumi əl-quran" əsərində İbn Farisin "Əl-sahibi fi fıqh əl-luğa" əsərindən iqtibas gətirərək (2, s.15) yazır ki, "İbn Əştə "Əl-məsahif" kitabında Kəb əl-Əhbərə istinadən deyir: "Ərəb, siryani və digər yazıların əsasını Adəm (ə.s) qoynuşdur. O, ölümündən üç yüz il əvvəl yazını gil üzərində yazmış və gilləri bişirmişdir. Dünyanı su basdığı zaman bu yazılar suda qərq olmuş, su çəkildikdən sonra hər bir millət öz yazısını, İsmayıl bin İrahim(ə.s) isə ərəblərin yazısını tapmışdır. (6.c.4, s. 145)

Bu fikirə Muhamməd bin Abdus əl-Cəhşiyarinin "Əl-vuzara va əl- kuttəb" əsrinin müqəddimə hissəsində eyni ilə rast gəlmək mümkündür (7, s.8).

Muhamməd Hussaməddin "Əl-xatt əl-arabi" adlı əsərində qeyd edir ki, onun nəzər saldığı bütün kitablarda yazıldığına görə yazı Allahın bəni- insana hədiyyəsidir - yəni, o, Allah Təala tərəfindən nazil olmuşdur (8, s.7).

Ərəb yazısının mənşəyini əvvəlki bəzi peyğəmbərlərə bağlayanlar ərəb yazısının bəşəri-insan əlinin məhsulu olmaması, vəhy yolu ilə hz.Adəmə və ya hz. Huda öyrədilməsi fikrini irəli sürənlərlə yanaşı, ondan ilk dəfə hz. İdris və ya hz. İsmayılın istifadə etdiklərini bildirən rəvayətlər də mövcuddur (2, s.15; 9, s.238 ).

İstər ərəb yazısı ilə bağlı, istərsə də ərəblərin tarixi ilə bağlı müraciət etdiyimiz əsərlərin hər birində demək olar ki, bu barədə rəvayətlərə rast gəlirik.

XX əsrin məşhur alim, tarixçi və xəttatı Muhamməd Tahir əl-Kurdi (1900-1980) də ərəb yazısının tarixinə dair sanballı əsərlərdən hesab olunan "Tərixu əl-xatt əl-arabi va ədəbuhu" kitabında Qalqaşandidən bu iqtibası gətirərək qeyd edir ki, bir çox dini və tarixi kitablarda, dilçiliyə aid mənbələrdə yazının yaranması barədə müxtəlif rəvayətlər vardır. Onların hamısında bu nəticəyə gəlmişlər ki, yazının əsasını Adəm (ə.s) daha sonra isə İdris (ə.s) qoymuşdur (10, s.15).

Əbu Həsən Əli bin Huseyn bin Əli əl-Məsudi "Əxbəru əl-zəmən" əsərində bəzi məlumatlara görə, ilk yazı yazanın Adəm (ə.s) olduğunu qeyd etmiş, bəzi xəbələrə görə isə Allah Təala nəsilləri və ümmətləri yazıdan xali qoymamış, İdris peyğəmbərə (ə.s.) peygəmbərlik və yazı yazmaq qabiliyyəti vermiş, o da bir neçə yazını öyrənmiş, ona Adəm oğullarının by yazını öyrənməsi üçün bütün səhifələri (mushafları) sistemli olaraq bir yerə toplamasının əmr olunması bildirilir ( 11, s.77-78).

Digər rəvayətlərin bir çoxu da ərəb yazısını İsmayıl (ə.s) və ya onun oğluna aid edirlər ( 12, s.25; 3, c.3, s.14) .

Başqa bir rəvayətdə iddia olunur ki, Adəmdən (ə.s) sonra qələmlə yazan ilk şəxs İdris (ə.s) olmuşdur (13, c.4. s.157).

Yazının Allah tərəfindən insanlara bəxş olunması, ilahi olması fikri ilə bağlı İbn Abbas tərəfindən nəql olunan rəvayətlərə istinad edilir. İbn Abbas şəxsiyyəti isə Abdullah bin Abbas bin Abdulmuttalib əl-Qureyşi əl- Həşimidir. O, hicrətdən 3 il əvvəl Məkkədə döğulmuş, hər zaman peyğəmbərin (ə.s.) yanında olmuşdur. Ondan çoxlu hədislər rəvayət olunur. Ömrünün sonunda kor olmuş, Taifdə yaşamış, hicri 68-ci ildə orada vəfat etmişdir (14, c.4, s.228-229).

İbn Farisi də (ö.395/1004) ərəb yazısının Allah Təala tərəfindən nazil olması, Allahın insana bilmədiyi şeyləri qələmlə öyrətməsini ifadə edən, qələmə və insanların (və ya mələklərin) qələmlə yazdıqlarına and içən ayətləri[2] dəlil olaraq irəli sürür (2, s.15).

---

[2] سورة العلق، الآية ١ـ ٥ ، سورة القلم، الآية ١٠،

Yazının yaranması haqqında olan bu ilkin rəyə ərəb yazısı ilə bağlı tədqiqat aparan ərəb, eləcə də avropalı şərqşünas alimlər öz əsərlərində yer ayırsalar da bu fikrin heç bir elmi əsasının olmadığını bildirmişlər.

Qeyd edək ki, yazının insanlara Allah Təala tərəfindən bəxş olunması qənaətinə orta əsr alimləri məhz yazı ilə bağlı Qurani-Kərimdəki ayələrin, xüsusilə, əl-Ələq surəsinin 1-4 –cü, əl-Qələm surəsinin 1-ci, əl-Bəqərə surəsinin 31- ci ayələrinin təfsiri zamanı gəlmişlər.

İkinci nəzəriyyəyə görə, yazı bir kəşfdir. Bu, birinci nəzəriyyənin tam əksidir. Belə ki, bu nəzəriyyəyə görə, yazı bir "nəaliyyətdir" – "ixtiradır". Burada yazının kimlər tərəfindən ixtira olunması barədə rəylər müxtəlifdir. Bəzi mənbələr onu müəyyən qruplara, bəziləri isə müəyyən şəxslərə aid edirlər.

Ərəb yazısının kim tərəfindən əsasının qoyulmasına gəlincə, Hişəm əl-Kəlbi deyir ki, "əsl ərəblərdən" العرب العاربة - ( "əsl ərəblər" dedikdə Yəmən əhalisi, qahtanilər, cənub ərəbləri nəzərdə tutulur. Onlar tarixdə himyərilər kimi tanınır) (15, s. 18)) olan Adnən bin Udədin dövründə ***Əbcəd***, ***Həvvaz***, ***Hutti***, ***Kələmən***, ***Səfas*** və ***Qəraşət*** adlı bir qrup adamlar əvvəlcə öz adlarına uyğun olaraq ərəb hərflərinin əsasını qoymuş, daha sonra sözlərdə onların adlarında olmayan hərflərin mövcudluğunu gördükdə yeni hərflər ض ، ظ، ذ، خ، ث، غ yaratmış, onları "ravadif" adlandıraraq əvvəlki hərflərin sırasına daxil etmişlər.". Rəvayətdə qeyd olunur ki, onlar Mədyən şahlarından olmuş və Şueyb peyğəmbərin ümməti ilə bir vaxtda bəla nəticəsində həlak olmuşlar." (16 , c.2, s. 348; 17, s. 6; 3, c. 3, s. 13; 18, s. 1816; )

Ərəb tarixçiləri başda əl-Bəlazuri olmaqla ərəb yazısının Hirədə[3] yaranmasını qeyd edirlər. Ərəb dilçilərinin əksəriyyətinin dəstəklədikləri tarixi faktlar bu dilin yazısının üç nəfər tərəfindən yaradıldığını təsdiqləyir.

Əl-Bəlazuri Abbas bin Hişəm bin Muhamməd bin əl-Səib əl-Kəlbidən, o da öz atasından, babasından və əl-Şərqi bin əl-Qattamədən rəvayət edərək bildirir ki, Tayy qəbiləsindən Bauləndən[4] 3 nəfər Muramr bin Murra, Əsləm bin Sidra və Amir bin Cədəra Baqqa adlı yerdə görüşürlər, siryani əlifbasından bəhrələnərək ərəb əlifbasını yaradırlar. Birincisi hərflərin formasını, ikincisi bitişik və ayrı yazılmasını, üçüncüsü isə hərflərin altında və ya üstündə diakritik işarələri yaradır. Onlar bu xətti **"cəzm"** adlandırdılar. Ənbar camaatı onlardan, Hirə əhli də ənbarlılardan həmin yazını öyrəndi. (19, s.659; 18, s.1816; 10, s 18; 17, s. 6-7)

Lakin bu barədə türk tədqiqatçısı Kemal Tuzcu Cavad Əlinin "Əl –məşrıqu" və "Məcəllətu əl- luğati əl-arabiyyəti" jurnallarına göndərdiyi məlumalarda yuxarıda adı çəkilən şəxslərin adlarının şəxs adı deyil, siryanicə bəzi sifətlərə aid olduğunu bildirir. Muramr bin Murranın (مرامر بن مرة) əslində مارا ماري بر ماري (Mə:ra: Mə:ri: bər mə:ri:) ərəb dilindəسيد لبسيد ابن السادة (Seyyidu sadə ibn əl-seyyid) olduğunu və bunun "Ağa oğlu", və ya "Ağaların ağası" və ya العلم شيخ شيوخ العلم ابن حامل لواء "Elm şeyxlərinin şeyxi", "Elm bayrağının daşıyıcısının oğlu" mənasını ifadə etdiyini, Əsləm bir Sidranın isə (اسلم بن سدرة) adının شايما بر سدرة adından yarandığını التام العلم الخطاط "Elmi tam olan xəttat" mənasına gəldiyini, son ad olan Amir bin Cidranın عامر بن جدرة isə بر جدرةعمرايا adından yarandığını və الحاذقالعماد "usta güc", ya da "mahir" mənasını ifadə etdiyini bildirir. (20, s.528 ) Bu birləşmələr şəxs adları olmayıb, "usta yazıçı" və xəttatlara aid edilən sifətlər olsa da bu sifətlərə malik olan şəxslərin ərəb yazısının icad edilməsinə hər hansı bir xidmətlərinin olub, olmaması barədə heç bir elmi dəlil yoxdur. (21, s. 158-159).

---

[3] İraqın bu günkü Nəcəf şəhəri ilə Kufə arasında yerləşən bir şəhəri idi. IV-VI əsrlərdə Ləhimilər dövlətinin paytaxtı olmuşdur.

[4] Tayy qəbilələrindən biridir.

Əl-Qalqaşandi də eyni hadisəni İbn Abbasdan nəql edir və sonda qeyd edir ki, bu elm Məkkəyə ötürülür, orada da öyrənənlər öyrənir, yazanların sayı artır. (3, c.3, s. 12).

Qeyd edək ki, əl-Bəlazurinin qeyd etdiyi rəvayət qərb şərqşünaslarının da diqqətini cəlb etmişdir. Ərəb yazısının yaranması ilə bağlı bu rəvayəti demək olar ki, həm ərəb, həm də qeyri-ərəb şərqşünaslar öz əsərlərində işıqlandırmış və münasibət bildirmişlər. Nabia Abbot (22, s.7-8), Beatris Qrindler (23, s.2) və digərləri yazı ilə bağlı əsərlərində bu rəvayətləri təsvir etmişlər.

Ibn Nədim də həmin rəvayəti cüzi dəyişikliklərlə İbn Abbasdan rəvayət edir. (17, s.5-6)

Ərəb əlyazmalarının tədqiqatçısı, dövrünün böyük alimi Nabia Abbat da bu barədə fikirlərini bildirir. O özünün "The rise of the north arabic script and its Quranic development" adlı əsərində əl-Bəlazuridən rəvayət edilən rəvayət də daxil olmaqla bütün rəvayət və fikirlərə yer ayırır və Hirədə ərəb yazısının yaradılması ilə bağlı rəvayətlərin səhv, yanlış xəbərlərə əsaslandığını vurğulayır (22, s. 8).

Ərəb yazısının yaranmasına, tarixinə aid bir sıra tədqiqatların, əsərlərin müəllifi iraqlı alim əl-Cuburi də "Aslu əl-xatt əl-arabi va tatavvuruhu hattə nihəyəti asr əl-əmavıyyi" əsrində bu rəvayətləri əks etdirir, lakin bildirir ki, hal-hazırda müasir tədqiqatçıların böyük hissəsi bu fikirlərlə razılaşmırlar. Xüsusilə şərqşünaslar. Bunun səbəbi barədə əl-Cuburi yazır:

لانه من الصعوبة بمكان ان يجتمع ثلاثة اشخاص و يقرروا اختراع كتابة ما و تقسيم و اجبات مثل ذلك الاختراع بينهم.
هذابالاضافة الي غرابة اسمائهم و بعدها عن العربية. كما انها ليست اسماء سريانية بالمعني الصحيح.

"Çünki, onların adlarının qeyri-adiliyi və ərəb dilindən uzaq olmasından əlavə üç şəxsin bir yerdə görüşməsi, hər hansı bir yazının yaradılmasını qərarlaşdırması, öz aralarında bu kimi ixtiranın vəzifələrinin bölüşdürməsi çətindir. Həmçinin adlar da həqiqi mənada siryani adları deyil" (24, 24-25)

Türk tədqiqatçısı Ali Aktan da bu rəvayət haqqında məlumat verir, lakin qeyd edir ki, bu rəvayət doğru hesab oluna bilməz. Belə ki, Bişr bin Abdulməlik İslamiyyətin ilk illərində Dumətul-Cəndəl əmiri olan Ukeydir bin Abdulməlikin qardaşıdır.

Bişrin yazını Muramirdən öyrənməsi rəvayət olunduğuna görə Muramir bin Murranın da İslamdan bir az əvvəl yaşamalıdır. Lakin ərəb yazısının yaranması altıncı əsrdən sonraya gedib çıxır ki, bu da səhvdir. Çünki Zəbəddə tapılan miladi 512-ci ilə təsadüf edən kitabə ərəb yazısının altıncı əsrə aid olmasını bildirən rəvayətlərin həqiqi olmamasını göstərir (26, s. 62-63).

Əli əl-Şərqi bu adların ləqəb olmasına inandığını iddia edir (27, s. 468-469).

Həmçinin əl-Bəlazurinin qeyd etdiyi rəvayətdə deyilir ki, Bişr bin Abd əl-Məlik əl-Kindi (Dumət əl-Cəndəlin kralı Ukeydr bin Abd –əl-Məlikin qardaşı) bir az qalmaq üçün Hirəyə gedir. Orada əhalidən ərəb yazısını öyrənir. Sonra bəzi işləri ilə əlaqədar Məkkəyə gedir. Orada onu Sufyan bin Umeyyə bin abd Şəms və Əbu Qeys bin Abd Mənaf bin Zəhra onun yazı yazdığını görürlər və xahiş edirlər ki, onlara da yazmağı öyrətsin. O, onlara əlifbanı öyrədir, yazı ğöstərir yazırlar. Sonra isə Bişr və Əbu Qeyslə birgə Ğeylən bin Səlmə əl-Saqfi ilə ticarət məqsədi ilə Taifə gedirlər. Ğeylən bin Səlmə əl-Saqfi, Taif camaatından bəziləri də onlardan yazını öyrənirlər. Sonra Bişr Diyər Mudara gedir, orada ondan bir nəfər yazmağı öyrənir, daha sonra Şama səfər edir oranın camaatından da bəziləri ondan yazmağı öyrənirlər (19, s.659-660; 24, s. 23-24).

Əl-Qalqaşandi İbn Hişamın "Əl-siratu əl-nəbavıyyə" əsərinə istinadən bildirir ki, ərəb yazısı ilə yazan ilk şəxs Himyər bin Səba olmuşdur ki, ona da bu yazı yuxuda öyrədil-

mişdir. Bundan əvvəl onlar musnədlə yazmışlar. Belə adlandırmanın səbəbi isə onların bu yazını Huda (ə.s.) aid etmələri ilə bağlı idi. Lakin əl-Qalqaşandi qeyd edir ki, bu, Ömər əl-Dəninin "Ərəb yazısı Huda nazil olmuşdur (ə.s.) " sözünə ziddir (3, c.3, s.12).

Ümumiyyətlə əl-Qalqaşandi özünün "Subh əl-Aşə" adlı ensiklopedik əsərinin üçüncü cildini sırf ərəb yazısına həsr etmiş, burada bu yazının yaranması, inkişafı haqqında özündən əvvəlki alimlərin fikirlərini bir yerə toplamış, bu və ya digər məsələ ilə bağlı bir neçə alimin əsərindən eyni vaxtda iqtibaslar gətirmişdir.

Alim əsərində Suheylinin "Əl-tərif va əl-iləm" əsərində ərəbcə ilk yazan şəxsin İsmayıl (ə.s), İbn Abd əl-Birrin isə ilk ərəb dilində danışan şəxsin İsmayılın (ə.s) olması, ona da vəhlə öyrədilməsi fikirlərini qeyd edir. Məkkədə alimlər qərara gəlmişlər ki, ilk yazıya başlayan Harb bin Əmiyyə Abd Şəms olmuşdur. O da yazını səyahətlər zamanı bir neçə şəxsdən öyrənmişdir. Bəşşar bin Abd –l-Məlik onlardandır (3, c. 3, s.14).

Abd əl-Rahmən bin Ziyad bin Ənam və onun atasından (Allah onlardan razı olsun) nəql olunur: "Ibn Abbasa dedim: "Ey Qureyş dostu, Muhamməddən (ə.s) əvvəl bu yazını hardan götürdünüz? Cavab verdi: onu Harb bin Əmiyyədən götürmüşük.

-Bəs Harb kimdən götürüb?

Dedi: Abdullah bin Cidandan

-Bəs Abdullah bin Cidan kimdən götürüb?

Dedi: Ənbər əhlindən.

-Bəs onlar kimdən götürüblər?

-Hira əhlindən.

-Bəs onlar kimdən?

-Onlar da Yəməndən- Kindədən gələn Taridən.

-Bəs Tari kimdən?

-O da əl-Xəfləcəndən- Hudun (ə.s) vəhy katibindən öyrənmişdir.

Xəfləcənin kimdən öyrənməsinə gəlincə, ehtimal olunur ki, o, yazını vəhy, və ya ilham yolu ilə öyrənən, sonra da ona öyrədən Hud peyğəmbərdən (ə.s) və ya qədim misirlilərin yazısını götürən finikiyalılardan öyrənmişdir.

Kindədən olan Bəşşar bin Abd əl-Malik Dauma əl-Cəndəlin [5] sahibi Əkidirin qardaşı idi. O, Bəşşar əl-Ənbardan öyrənmişdir yazını. Onun adı çəkilən Harb bin Əmiyyə ilə İraqda tucarət işlərində dodtluqları vardı. Bəşşar onunla birlikdə Məkkəyə səfər edir, Əbu Sufyanın bacısı- adı çəkilən Harbın qızı əl-Sahbə ilə evlənərək Məkkədə qalır. Beləcə, Qureyşlilərdən bir dəstə adam ondan yazı yazmağı öyənir. Sonra o Məkkədən gedir (10, s.58-59).

Qeyd edək ki, həm birinci, həm də ikinci nəzəriyyələr demək olar ki, əfsanə olaraq qəbul edilir. Demək olar ki, ərəb yazısının yaranması, mənşəyi haqqında fikirlər, rəvayətlər çoxdur və bunlar orta əsr alimlərinin əsərlərində öz əkslərini tapmışlar. Lakin müasir dövrdə həm ərəb, həm şərqşünas alimlərinin də fikrinə görə bunlar qeyri-elmi hesab olunurlar. Sadəcə ərəb yazısının yaranması ilə bağlı ehtimallardır. Cünki bu rəvayətlərin, əfsanələrin heç bir maddi sübutu yoxdur.

**Üçüncü nəzəriyyə** isə ərəb yazısının özündən qədim olan yazılardan yaranmasıdır. Burada isə bir neçə bölgü aparılmışdır. Biz bu bölgülərə alim və yazıçı Salahəddin əl-Muncidin "Dirasətu fi tərixi əl-xatti əl-arabiyyi munzu bidəyətihi ilə nihəyəti əl-asr əl-əmavıyyi" (26) adlı əsərində rast gəlirik. Ərəb yazısının özündən daha qədim yazılardan törəməsi fikrinə gəlincə, alim onun bir neçə qrupa bölmüşdür. Demək olar ki, bu tədqiqat

[5]Səudiyyə Ərəbistanında Səkəkə şəhərinin cənub-qərbində, əl-Riyaddan 900 km uzaqlıqda yerləşən ərazi (25 )

əsərində bu vaxta qədər ərəb yazısı ilə bağlı bütün fikirlər cəmləşdirilmiş, alim tərəfindən qənaətbəxş konsepsiyalar və nəticələr irəli sürülmüşdür.

Burada isə birinci rəy, ərəb yazısının ***Cənub (Himyər) yazıdan yaranmasıdır. Ərəblərdə belə bir*** fikir yayılmışdır ki, ərəb yazısı himyəri musnəd yazısından törəmişdir. Ərəb yazısının cəzm adlandırılması səbəbi isə onun himyəri musnəd yazısından kəsilmiş və ayrılmış olmasıdır. Deyilir ki, Himyər əhalisindən ərəb yazısını hardan örənmələri barədə soruşulduqda cavab verirlər ki, Ənbar əhlindən. Bəs Ənbar əhli onu hardan öyrənib? Cavab verirlər ki, Yəməndən (3, c.3, s.14).

Cavad Əlinin qeyd etdiyi kimi, tədqiqatçıların Ərəbistan yarımadasının müxtəlif ərazilərində, o cümlədən Ərəb Körfəzinin sahillərində rast gəldikləri musnədlə yazılmış kitabələrdən (onların bəziləri qədim, bəziləri də İslama yaxın dövrə aiddir ) aydın olur ki, Musnəd yazısı ərəblərin ilk və orijinal yazısı olmuşdur. Bütün Ərəbistan yarımadasının əhalisi bu yazı ilə yazırdı. (18 ,1813)

Bir qrup alimlər iddia edirlər ki, ərəb yazısı musnəd himyər yazısından yaranmışdır. Hətta ərəb yazısı musnəd-himyər yazısından çəzm olunduğu, ayrıldığı üçün cəzm adlandırılmışdır.

Lakin Sahilə Yəsin əl-Cuburi "Əl-xattu əl-arabiyyu va tatavvuruhu fi əl-usuri əl-abbasiyyi fi əl-İraq" adlı əsərində ərəb yazısının musnəd-himyər yazısından ayrılması məsələsinə toxunarkən qeyd edir ki, bu doğru deyildir. Bu iki yazı arasında hər iki yazının vahid sami kökünün olmasından başqa onlar arasında heç bir əlaqə yoxdur. Müqayisə üçün verilən qədim ərəb hərfləri ilə himyər hərfləri arasında müqayisədən göründüyü kimi, onlar bir-birlərindən kəskin surətdə fərqlənirlər.

و هذا غير صحيح اذ ان الخط العربي لم يقتطع من المسند الحميري كما تقول هذه الرواية و ليس هناك اي
علاقة بينهما سوي انهما قد اشتقا من أصل سامي واحد كما يظهر من مقارنة هذه الحروف الحميري
بما يقابلها من الحروف العربية القديمة التي تدل علي انها تختلف عن بعضها اختلافا شديدا. (32 ,10)

Müəllif əyani şəkildə sübut etmək üçün himyər və ərəb əlifbasının hərflərindən nümunə verir:



ərəb
himyər

Mənbə: (31, s.10)

Təbii ki, burada da alimlərin fikirləri fərqlidir. Lakin qədim ərəb yazısı olan himyər yazısı, onun istifadəsi, inkişafı, müasir ərəb yazısının öz mənşəyini bu yazıdan götürüb-götürməməsi kimi məsələlər başqa bir məqalənin mövzusu olduğu üçün mövzudan çox uzaqlaşmayacağıq.

Ikinci fikir ərəb yazısının **şimal (hirə) yazısın**dan yaranması fikridir ki, əl-Muncidə görə, Hirə şübhəsiz mədəni bir mərkəz idi. Yazı da oradakı mədəniyyətin nəaliyyətlərindən biri idi. Lakin onlar xristian dininə sitayiş edir, əhalisi siryani və ya "hirə yazısı" adlanan yazı ilə yazırdılar (28, s.16).Kopp, Gesenins, Kausisde de Peseval, Renan və Starki kimi bir sıra şərqşünas alimlər bildirmişlər ki, qədim ərəb yazısı öz mənşəyini siryani yazısından götürmüşdür (29, s. 319).

Ərəb yazısının tədqiqiqi ilə məşğul olan əl-Muncid bu məsələ barədə tədqiqatçıların əldə etdikləri nəticələri rəhbər tutaraq qeyd edir ki, alimlər bu nəticəyə gəlmişlər ki, arala-

rındakı fərqlərdən və ya oxşarlıqdan göründüyü kimi, ərəb yazısı nə siryani yazısından ayrılmış, nə də onun təsiri ilə yaranmışdır. Bizə ərəb yazısı ilə hirə yazısını müqayisə etmək üçün nə Hirə, nə də Ənbarda istifadə olunan yazı ilə yazılan heç bir mətn gəlib çatmamışdır. (28, s.12;30, s.4)

Hətta ərəb yazısının öz əsasını siryani yazısından götürməsi fikrini irəli sürən ərəb mütəxəssislərindən biri də Əhməd Rzadır (30, s.10). Lakin əl-Cuburi İbn Hişama istinad edərək bildirir ki, fakt budur ki, suryani yazısı Ərəbistan yarımadasında İslamın ilk vaxtlarında da mövcud idi (24, s. 29).

Bu nəzəriyyəyə aid sonuncu rəy isə ərəb yazısının mənşəyini **nabati yazısından** yaranması fikridir. Nəzərə çatdıraq ki, III nəzəriyyədə- yəni ərəb yazısının mənşəyini özündən qədim yazılardan götürməsində alimlər əsas iki mənbə: qədim cənubi ərəb yazıs olan himyər musnəd və şimal ərəb yazısı olan nabati yazısının üzərində durmuşlar. Lakin ən sonuncu rəy -ərəb dilinin öz mənşəyini nabati yazısından götürməsi maddi sübutlara əsaslanır və mütəxəssislər tərəfindən yekdilliklə qəbul edilir.

Qeyd edək ki, ərəb yazısının mənşəyi haqqında olan nəzəriyyələrdən yalnız sonuncu nəzəriyyə reallığa uyğundur. Məhz yazılı abidələrin tədqiqi zamanı alimlər, tədqiqatçılar ərəb yazısının şimal ərəb yazısı olan –nabati yazısından yaranması rəyinə gəlmişlər. Buna baxmayaraq, ərəb yazısının yaranması haqqında olan digər nəzəriyyələrin də ərəb yazısı tarixində xüsusi yeri var.

**Ədəbiyyat :**

1. Diringer. D. Writing. Ancient Peoples and Places series. London. 1965, 261 p.
2. ابو الحسين احمد بن فارس بن زكريا. الصاحبي في فقه اللغة العربية و مسائلها و سنن العرب في كلامها. الطبعة الاولى ، هـ 1418 – م 1997، دار الكتب العلمية، بيروت- لبنان، ص. 238 .
3. ابو العباس احمد بن علي القلقشندي. صبح الاعشى في صناعة الانشاء. طبع بالمطبعة الاميرية بلقاهرة، سنة 1332 هـ - 1914 م. الجزء الثالث ، ص..551
4. القرآن الكريم. المدينة المنورة،1998,ص. 609.

5. V.M.Məmmədəliyev, Z.Bünyadov. Qurani- Kərimin zərbaycan dilinə tərcüməsi. Bakı: Qismət, 2006. 479 s.
6. جلال الدين عبد الرحمن بن ابي بكر السيوطي ابو فضل. الاتقان في علوم القرآن. وزارة الشؤون الاسلامية و الدعوة و الارشاد السعودية- مجمع الملك فهد لطباعة المصحف الشريف،هـ 1426، عدد المجلدات 7، المجلدات 7، ص. 3216
7. ابو عبد الله محمد بن عبدوس الجهشياري، الوزراء و الكتاب. دار الفكر الحديث للطباعة و النشر، بيروت، لبنان،هـ 408 - م 1988، ص. 216.
8. محمد حسام الدين اسماعيل عبد الفتاح، الخط العربي. نشاته و تطوره حتي القرن السادس الهجري \ القاهرة، سنة 2013، ص. 217.
9. عبد الملك بن هشام بن أيوب الحميري المعافري. السيرة النبوية . المحقق: عمر عبد السلام تدمري. دار الكتاب العربي، سنة 1410 - 1990، عدد المجلدات 4 ،ص. 1622 .
10. محمد طاهر بن عبد القادر الكردي المكي الخطاط. تاريخ الخط العربي و آد ابه. مكتبة الهلال، سنة 1359 هـ - 1939 م، 470 ص.
11. ابو الحسي علي بن الحسين بن علي المسعودي. اخبار الزمان و من أباده الحدثان، و عجائب البلدان و الغامر بالماء و العمران.، الطبعة الثانية، المكتبة الحيدرية، العرا ق- النجف الاشرف. 1386 هـ -1966 م. ص. 281.

12. ابو عمرو الداني. المحكم في نقط المصاحف، دمشق، دار الفكر، هـ 1418- 1997 م. ص. 349
،

13. ابن عبد ربه، ابو عمر احمد بن محمد الاندلسي المتوفي سنة ٣٢٨ه\٩٣٩ م، العقد الفريد، مطبعة لجنة الترجمة و النشر، القاهرة، ١٣٦٥هـ -١٩٤٩م، جـ ٤، ص. ١٥٧
14. الزركلي خير الدين، الاعلام، الطبعة الثالثة: بيروت ١٣٨٩ هـ - جـ 4 1969، ص. 228-229
15. Qasımova A.A. Ərəb ədəbiyyatı tarixi V-XIII əsirlər. Bakı, 2018 s. 622. https://www.academia.edu/37792436/A%C4%B0DA_QASIMOVA
16. جلال الدين عبد الرحمن بن ابي بكر السيوطي ابو الفضل، المزهر في علوم اللغة ، مجلدان. و انواعها، القاهرة، دار احيا، الكتب العربية، ١٩٥٨
17. ابن النديم، الفهرست، بيروت، مكتبة خياط، ١٩٩٢ ،ص. ٤١٩.
18. خواد علي. المفصل في تاريخ العرب قبل الاسلام\ 2018 ، ص. 2410.
**Source :**www.almeshkat.net

19. احمد بن يحيي بن جابر البلاذري. كتاب فتوح البلدان، مؤسسة المعارف، بيروت، لبنان؟ هـ 1407 \م 1987 ص. 768.
20. خواد علي. تاريخ العرب قبل الاسلام . (ثمانية مجلدات) طبعها المجمع العلمي العراقي بين سنتي 1956 – العراق، 1957، ص. 528 . 1960، 7 مج.
21. Kemal Tuzcu. Arap yazısının ortaya çıkışı (I). NÜSHA – Şarkiyat araştırmaları Dergisi, Yıl I, Sayı 2, Yaz 2001. S. 159-165.
22. Nabia Abbott. The rise of the North Arabic Script and its Kuranic Development, with a full description of the Kuran manuscripts in the oriental institute. The University of Chicago press, Chicago, 1931, p.160.
23. Beatrice Gruendler. The development of the arabic scripts. From the Nabatean Era to the First İslamic Century According to Dated Texts: Harvard Semitic studies 43, Atlanta: Scholars press, 1993, p.171.
24. سهيلة ياسين الجبوري أصل الخط العربي وتطوره حتى نهاية العصر الأموي، بغداد، مطبعة الاديب البغدادية ١٩٧٧، ص 184 .
25. The online encyclopedia. https://ar.wikipedia.org/محافظة_دومة_الجندل
26. Dr. Ali Aktan. Arap yazısının doguşu, gelişmesi ve islam yazısı halıne gelmesi. Islami araşdırmalar. Cilt 2, sayı 6. Ocak 1988. s.61-67.
27. الشرقي علي . الكتابة في العراق. مجلة لغة العرب. السنة. م ١٩١٣. ج. ١٠. ص. ٤٦٨–٤٦٩
28. صلاح الدين المنجد. دراسات في تاريخ الخط العربي منذ بدايته الي نهاية العصر الاموي، دار الكتاب الجديد. بيروت، لبنان، الطبعة الثانية، 1979، 152 ص.
29. Taylor İ. The Alphabet. London. 1883. Vol. 1, p.319.
30. رضا احمد، رسالة الخط.مطبعة العرفان ، ١٣٣٢هـ م١٩١٤ ص. 201

31. نامي خليل يحي. اصل الخط العربي و تاريخ تطوره الي ما قبل الاسلام ، القاهرة، 1953. 238 ص.
32. سهيلة ياسين الجبوري. الخط العربي و تطوره في العصور العباسية في العراق. مطبعة الزهراء- بغداد ، 1371 هـ \1962 م. 148 ص.

***Кёнюль Эйвазова***

## ТЕОРИИ О ПРОИСХОЖДЕНИИ АРАБСКОЙ ПИСЬМЕННОСТИ

**Резюме**

Существуют разные мнения о происхождении арабской письменности. Некоторые ученые считают ее божественным даром, некоторые - открытием, другие, ссылаясь на материальные доказательства, утверждают, что она произошла от древней письменности. На основе этих идей образовались разные теории. Эта статья посвящена теориям о происхождении арабской письменности. Автор, учитывая идеи арабских и европейских ученых о происхождении арабской письменности, дает информацию о сформировавшихся теориях.

**Ключевые слова:** *арабское письмо, происхождение, теория, муснад, набатейское письмо.*

***Kyonul Eyvazova***

## THE ORIES ABOUT THE ORIGIN OF ARABIC WRITING

**Summary**

There are different ideas about the origin of Arabic writing. Some scholars consider it to be something divine, some say it is an invention, others rely on material proofs and claim that it is created from ancient scripts. Theories are formed on the basis of these ideas. The present article is about theories on the origins of Arabic script. The author scrutinized the works by Arabic and European researchers about the origin of Arabic script; classified these theories and provided information about the formed theories.

**Key words:** *arabic script, origin, theory, musnad, nabatean script.*

*Redaksiyaya daxil olma tarixi: 19.09.2018*
*Çapa qəbul olunma tarixi: 14.12.2018*

*Filologiya üzrə elmlər doktoru **Gülbəniz Babaxanlı** tərəfindən çapa tövsiyə olunmuşdur.*